Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Ədalət.S.7.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

№ 160 (2008) 24 oktyabr 2019-cu il

# Elmdə və sənətdə cığıraçanlar tandemi

## Ata və oğul Hüseynovların milli və beynəlmiləl yaradıcılıq yolu

**Bu il tanınmış azərbaycanlı alim, astrofizika üzrə Azərbaycanda ilk fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Beynəlxalq Astronomiya İttifaqının və Avropa Astronomiya Cəmiyyətinin üzvü, əməkdar müəllim, professor Rəhim Əyyub oğlu Hüseynovun 95, onun oğlu, dünyada tanınan istedadlı bəstəkar, əməkdar artist, milli dildə ilk yapon operasının müəllifi Fərhəng Rəhim oğlu Hüseynovun 70 illik yubileyidir**

Heç kim həyatda əbədi deyil. Hər gün toran qovuşanda səmada peyda olan ulduzlar kimi bir yandan hey gələn, dan yeri qızarınca o biri yandan sanki günəş işığında əriyib yox olan insan ömrü də ilk baxışda həyatın vəfasızlıq sindromuna şahidlik edir. Bu, kainatın bizim iradəmizdən asılı olmayan gərdişidir. Ancaq bir iş də var ki, işıqda əriyib gedən ulduzların itməsi hallusinasiyadır. Həqiqətdə onlar gözdən itirlər, virtual olaraq isə şüurlarda və ənginliklərd izləri qalır. Lakin bu məsələdə də nüanslar var. Kiminin əbədiliyi xəyalidir, kimininki isə kodlarladır. Xəyal insanların hafizəsinə bağlandığından unudulmaq təhlükəsi ilə üz-üzədir. Kodlarda əbədiləşən talelər isə dahi adlandırılır və onların unudulması mümkünsüzdür. Çünki, zərrəciklərin mahiyyətinə hoparaq daşınan irsin taleyi insan övladının iradəsi xaricindədir. Bunlar bəşəri xəzinədir və türk geninin görkəmli nümayəndələrindən biri olan Rəhim Hüseynovun xoşbəxtliyi kainatın qoynunda əbədi yurd salmasıdır.

İnsan şüurunu heyrətləndirən möcüzələrdən biri də ruhları kodlaşan bütün dahilərin xaraktercə səciyyəvi xüsusiyyətlərə malik olmalarına rəğmən açdıqları cığırların bir-birinə oxşamamasıdır. Bu, həyatda indiyə qədər açılmış milyardlarla cığırlar arasında tapdanmamış yeni cığırların tapılıb bəşər cəmiyyətinə yeni töhfələr bəxş edilməsidir. Belə bir dəyərə yalnız seçilmişlər nail ola bilirlər. Öz istedadı, əməlləri, kəşfləri ilə gözlə görünməyən yüksəkliyə ucalan bu insanlardan ikisi - Rəhim və Fərhəng Hüseynovlar Azərbaycan tarixinin ən gur işıq saçan simaları arasında kodlaşdırılmış yerə sahibdirlər. Sağ olsaydılar indi hər iki seçilmişin doğum gününün əks etdirən rəqəmlər yubiley təntənəsi ilə bərq vurardı. Onlardan birincizi ata Rəhim Hüseynovdur. Onun atası Əyyub kişinin var-dövlət sarıdan əli bir yana çatmasa da, zehin və dərrakə sarıdan təfəkkürü mükəmməlliyə malik olub. Azərbaycan mədəniyyəti və milli təfəkkürünün incisi olan Şuşada doğulub böyüməsi onun irsi təfəkkürünə mənəvi mühitin ən gözəl çalarlarını hopdurub. İctimai mühitin dolğunluğu Əyyub kişiyə təbiətin səxavəti ilə mühitin qovuşmasından yaranan ucalığı duymağa, elmin, savadın insan həyatını gözəlləşdirməsini qavramağa yardımçı olub və buna görə də ömrünün səfasını övladlarının savadlanmasında görüb.



Rəhim Hüseynov 8 yaşına çatanda ailə Ağdama köçüb və bu köç ailənin gələcək həyatının müdrik məcraya yönəlməsində zəruri rol oynayıb. Çünki, balaca Rəhim Ağdamdakı özünəməxsus mötəbər ənənələri ilə məşhur olan 1 nömrəli məktəbdə, əhali arasında böyük hörmət və nüfuza malik Mirkazım müəllimin direktor olduğu ocaqda ilk təhsilini alıb. "İlk" sözü əslində rəsmi təhsilə görə işlədilir, ona görə ki, Rəhim məktəbə gedənə qədər böyük qardaşının dərs kitablarını təkbaşına mütaliə edərək artıq bir neçə sinfin materialını mənimsəmişdi. Bu səbəbdən yüksək hazırlığına görə onu birbaşa IV sinfə qəbul edirlər. VII sinfi əlaçı kimi başa vuran yeniyetmənin ailəsi Bakıya köçdüyündən o da təhsilinə paytaxtda davam edir. Böyük və ziddiyyətli şəhər həyatı Rəhimin dünyagörüşünün zənginləşməsinə və elmə həvəsinin artmasına ciddi təkan verir. 1940-cı ildə orta məktəbi əla qiymətlə bitirərək, həmin il Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə imtahansız daxil olur. 1946-cı ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vurur. Qazandığı biliklərə və tədqiqatçılıq bacarığına görə rəhbərlik onu universitetdə saxlayır və 1946-1949-cu illərdə "astrofizika" ixtisası üzrə aspirant olan Rəhim Hüseynov elmi fəaliyyətə başlayır. 1946-cı ilin yayında Azərbaycan Elmlər Akademiyası və Azərbaycan Dövlət Universitetinin respublikada gələcək Astrofizika



Rəsədxanası üçün əlverişli yerin seçilməsi məqsədi ilə birgə təşkil olunan elmi ekspedisiyanın tərkibinə Rəhim də daxil edilir. Rəsədxana kimi mühüm elmi mərkəzin tikilməsi üçün günəşli günlərin çoxluq təşkil etdiyi (1800-2900 saat /il) hündür dağlıq ərazi tapılmalıydı. Araşdırmalardan sonra məlum olur ki, günəşli saatların illik miqdarı, buludsuzluqla əlaqədar Naxçıvanın Arazboyu düzənliklərində, Abşeron-Qobustan və Kür-Araz ovalığında maksimuma (2900 saat/il) çatır. Hündürlüyünə və iqtisadi cəhətdən əlverişliliyinə görə rəsədxananı Şuşada tikmək qərara alınır və müvafiq təkliflə ekspedisiya üzvləri lazımı qurumlara müraciət ünvanlayırlar. Bir müddət keçir və ölkə rəhbərliyi Şuşanın namizədliyinə razılıq vermir. Səbəb isə izah olunmur. Sonradan dəhliz söhbətlərindən məlum olur ki, Dağlıq Qarabağ vilayətinin erməni əhalisi Moskvaya məktublar göndərərək bu işin həllinə mane olublar. Çünki, Şuşada rəsədxananın tikilməsi regionun dünyada məşhurlaşmasına və bu torpaqların Azərbaycan ərazisi olması faktının yayılmasına səbəb olardı.

1953-cü ildə istifadəyə verilən Pirqulu Astronomiya stansiyasına (1956-cı ildən Astrofizika Rəsədxanası) direktorun elmi bölmə üzrə müavin təyin olunan Rəhim Hüseynov həm də "Günəş fizikası" şöbəsinə rəhbərlik edir. Onun səyi ilə rəsədxanada Leninqradda istehsal olunmuş "Üfüqi Günəş teleskopu" adlanan cihaz quraşdırılır. Uzun müddət bu elm ocağında geniş diapazonda fəaliyyət göstərən Rəhim Hüseynov 1957-ci ildə Yerin ilk süni peyki buraxılanda onu müşahidə etmək məqsədilə universitetdə xüsusi stansiyanın yaradıcısı, rəhbəri və əsas aparıcısı olub.

Elmdə cığır açmaq kimi ilkinlik sindromuna malik alim 1953-cü ildə astrofizika üzrə respublikamızda ilk elmlər namizədi, 1971-ci ildə isə ilk elmlər doktoru elmi dərəcəsinə yiyələnib. Rəhim Hüseynovun elmi tədqiqatlarının nəticəsi olan "Astrofizika və radioastronomiya", "Günəşin radio - optik şüalanma xüsusiyyətləri və relyativist elektronların Günəşin məhəlli maqnit sahələrində şüalandırması", "Günəşin alışmalarının ilk mərhələsində güclü nöqtəvi partlayış nəzəriyyəsinin tətbiqi", "Planetar dumanlıqların əsas parametrlərinin təyini üsulları" sonrakı dövrdə astrofizika elminin inkişafında istiqamətləndirici mənbə rolunu oynayıb.

Həmin dövrdə elmi işlərdə məhsuldarlığı getdikcə artıran alim beynəlxalq elmi ictimaiyyətin diqqəini daha çox cəlb edir və onu 1969-cu ildə Beynəlxalq Astronomiya İttifaqına üzv seçirlər. İttifaqın ABŞ-da, Çexoslovakiyada, İngiltərədə keçirilən qurultaylarında Azərbaycanı müvəffəqiyyətlə təmsil edən Rəhim Hüseynov o dövrlərdə SSRİ məkanının astrofizika mərkəzləri sayılan Baş Astronomiya (Pulkovo) Rəsədxanasında, Krım Astrofizika Rəsədxanasında, Moskva, Sankt-Peterburq, Kiyev universitetlərində, Rumıniya, Çexoslovakiya və Türkiyənin elmi təhsil mərkəzlərində və müəssisələrində çoxsaylı elmi məruzələrlə çıxış edir. Sanballı elmi əsərlərinə görə o, Avropa Astronomiya Cəmiyyətinə də üzv seçilir.

Görkəmli alim 1975-ci ildə Azərbaycan Dövlət Universitetində təşkil olunmuş astrofizika kafedrasına 17 il rəhbərlik edib. 1992-ci ildən ömrünün sonuna qədər isə Bakı Dövlət Universitetinin professoru vəzifəsində işləyib. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasına "astrofizika" ixtisası üzrə müxbir üzv seçilib.

**Müstəqillik qazanandan sonra ana dilimizin geniş tətbiq olunması həyatın bütün sahələrində Azərbaycanca elmi terminlərin, ümumi sözlüyün yaranmasına böyük ehtiyac duyulur. Astrofizika elmi üzrə bu ehtiyac özünü daha kəskin göstərir, çünki sovet dövründə Moskvadan verilən təlimatlarla əsas fundamental tədqiqatlar rus dilində yazılmışdı.**

**(ardı növbəti sayımızda)**

***Novruz NOVRUZOV,***
***jurnalist***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR